# Söz və əməl birliyi

***Ermənistan ordusunun ötən ilin payızında təxribat törədərək, hərbi mövqelərimizi atəşə tutması Azərbaycan Ordusunu əks-hücum əməliyyatları keçirməyə məcbur etdi. Bununla da başlanan Vətən müharibəsində düşmən ağır məğlubiyyətə uğradı, parlaq qələbəmizlə 30 ildən artıq davam edən münaqişəyə, torpaqlarımızın işğalına son qoyuldu, Cənubi Qafqaz bölgəsinin gələcək inkişafına yönələn fəaliyyətin yeni formatı yaradıldı. Azərbaycan İkinci Qarabağ müharibəsi ilə, həm də Ermənistanın işğalçı qoşunlarının ərazilərimizdən tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən Birləşmiş Millətlər Təşkilatının kağız üzərində qalan qətnamələrini reallaşdırdı. Beləliklə, ərazi bütövlüyümüz bərpa olundu, ədalətsizlik, haqsızlıq aradan qaldırıldı.***

***Bizim sözümüzlə əməlimiz heç vaxt fərqlənmir. Yəni, nəyi deyiriksə, onu da edirik. Sözümüzü tutan insanlarıq və həyat bunu dəfələrlə göstərib.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***



Onu da deyək ki, hələ Vətən müharibəsinə qədər Prezident İlham Əliyevin müdrik siyasəti ilə ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası kimi beynəlxalq təşkilatların və bir çox digər nüfuzlu qurumların Azərbaycanın ədalətli mövqeyini dəstəkləmələri nəticəsində çox möhkəm beynəlxalq təməl yaranmışdı. Azərbaycan bu təmələ, həmçinin BMT-nin nizamnaməsinə əsaslanaraq, eyni zamanda, beynəlxalq hüquq çərçivəsində hərəkət edərək, əks-həmlə əməliyyatı ilə 44 günlük savaşla torpaqlarımızı düşməndən təmizlədi.

Azərbaycanın Vətən müharibəsindəki parlaq qələbəsi ölkə Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin qətiyyətli addımlarının, xalq-iqtidar birliyinin və Azərbaycan Ordusunun güc-qüdrəti və döyüş ruhunun məntiqi nəticəsi idi. Dövlətimizin başçısı müharibədən sonra çıxışlarının birində bu məqama toxunaraq dedi: "Hər kəs gücümüzü gördü. Hər kəs qüdrətimizi gördü, iradəmizi gördü. Bu "dəmir yumruq" onların belini qırdı, onların başını əzdi. Bu, birlik yumruğudur, bu, güc yumruğudur. Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik".

Torpaqlarımız işğal altında qaldığı 30 il ərzində Azərbaycanda ordu quruculuğu prioritet istiqamət kimi diqqətdə saxlanıldı. Silahlı Qüvvələrimizin kompleks inkişafı və modernləşdirilməsi ilə bağlı düşünülmüş hərbi siyasət həyata keçirildi. Vətən müharibəsində bu, öz müsbət nəticəsini verdi. Ordumuz düşmənin uzun illər ərzində qurduğu, keçilməz hesab edilən müdafiə xətlərini qəhrəmanlıqla yardı, Ermənistanın hava hücumundan müdafiə sistemi və hərbi hava qüvvələrini sıradan çıxardı. İşğalçı qüvvələrə ağır zərbələr endirdi, onların çoxlu sayda canlı qüvvəsi və hərbi texnikasını məhv etdi.

Azərbaycan Prezidenti İlham Əliyev bütün bunlarla bağlı çıxışlarının birində dedi: "Biz müharibə dövründə Ermənistan ordusunu demək olar ki, məhv etdik. Mən müharibə dövründə müntəzəm olaraq düşmənin hərbi texnikasının məhv edilməsi ilə bağlı Azərbaycan xalqına məlumat verirdim. Artıq müharibə başa çatıb və bölgədə yeni dövr başlayır. Amma istərdim ki, Azərbaycan xalqına məlumat verim. Biz müharibə dövründə Ermənistan ordusunu necə məhv etmişik və nəyə görə Ermənistan baş naziri o alçaldıcı kapitulyasiya aktına imzasını qoydu...".

Yeri gəlmişkən, burada bir məqamı da vurğulamaq yerinə düşərdi. Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsinə qədər gücləndirilməklə bərabər, Silahlı Qüvvələrimizdə xidmət keçən əsgər və zabitlərimizdə Vətənə dərin sevgi hissi də formalaşdırılmışdı. Vətən müharibəsində bu, öz təsdiqini tapdı. Bunu hazırda erməni tərəfi də etiraf edir. Ermənistan Müdafiə Nazirliyinin keçmiş mətbuat katibi Artsrun Hovannisyan bildirirb ki, savaş günlərində Azərbaycan əsgərləri bayrağı sinəsinə sıxıb, "ölmək istəyirik, bizə toxunmayın deyirdilər". "Mübarizlər" səhifəsinin yaydığı görüntülərdə erməni jurnalisti Roman Baqdasaryan da Hovannisyanın səsləndirdiyi fikirləri yenidən dilə gətirərək bildirib ki, Azərbaycan əsgərlərində ruh, torpaq eşqi var. Bəs ermənilərdə hansı ruh, hansı yurd məhəbbəti var? Yoxdur və bundan sonra da olmayacaq".

Azərbaycan torpaqlarının uzunmüddətli işğalına son qoyan İkinci Qarabağ müharibəsindən artıq bir ilə yaxın vaxt keçir. Ordumuzun əldə etdiyi parlaq qələbə ilə regionda, eləcə də respublikamızda yeni dönəm, yeni inkişaf mərhələsi yaşanır. Prezident İlham Əliyev vaxtaşırı çıxışlarında, müsahibələrində bu barədə ətraflı bəhs edir. Dövlətimizin başçısı müharibədən sonra bölgədə tamamilə fərqli bir mənzərə yarandığını diqqətə çatdıraraq, hazırda işğaldan azad olunan ərazilərin yenidən qurulması prosesinin sürətlə gerçəkləşdiyini vurğulayır. Bu məsələdə diqqətçəkən cəhət odur ki, dövlətimizin başçısı davamlı şəkildə işğaldan azad olunan rayonlara səfərlər edir, düşməndən təmizlənən ərazilərin bərpası və yenidən qurulması ilə bağlı layihələrin reallaşdırılmasını diqqət mərkəzində saxlayır, erməni barbarlığının qurbanı olan yaşayış sahələrində mühüm strateji obyektlərin, müəssisələrin təməlini qoyur, tikinti-quruculuq işlərinin gedişi ilə maraqlanır, bu istiqamətdə dəyərli tapşırıq və tövsiyələrini verir. Bütün bunlarla bərabər, Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulmasında yüksək texnologiyaların tətbiqinin zəruriliyini diqqətə çatdırır.

Qarabağda bərpa-quruculuq layihələrinin reallaşdırılması o qədər də asan məsələ deyil. Çünki 30 il işğal altında saxlanılan böyük bir ərazidə toxunulmamış, dağıdılmamış bir şəhər, bir qəsəbə, kənd belə saxlanılmayıb. Düşmən hər yeri xarabalığa çevirib, maddi-mədəni abidələrin izlərini silib, infrastrukturu yerlə bir edib. Ölkə rəhbəri çıxışlarının birində bu barədə deyib: "Biz müzəffər xalq kimi özümüzü dünyada təsdiq etmişik. Ermənistan isə məğlub edilmiş ölkədir, bizim qarşımızda diz çökmüş ölkədir, başını, boynunu bükmüş ölkədir və həmişə belə olacaq. Onların törətdikləri vəhşilikləri görəndə adam dəhşətə gəlir. Bütün şəhərlərimiz dağıdılıb, məscidlər dağıdılıb. Məscidlərdə inək, donuz saxlayıblar, bütün müsəlman aləmini təhqir ediblər, qəbirləri dağıdıblar, qəbirləri şumlayıblar, dəfn edilmiş insanların qızıl dişlərini çıxarıblar. Bu, vəhşi deyil, nədir?".

Bəli, Qarabağda bütün yaşayış sahələri vəhşicəsinə dağıdılıb. Özü də bu dağıntılar, vəhşiliklər, barbarlıqlar Birinci Qarabağ müharibəsindən sonra törədilib. Otuz il davam edən işğal dövründə mənfur düşmən yaşayış məntəqələrimizi indiki acınacaqlı hala salıb, kənd və şəhərlərimizin izini belə itirməkdən çəkinməyib. Əslində, bu, qəddar düşmənin vandal hərəkətlərinə dünya birliyinin susqun münasibətindən irəli gəlib. Başqa sözlə, nüfuzlu ölkələr, beynəlxalq təşkilatlar tərəfindən Ermənistanın insanlığa sığmayan bu cür əməllərinə laqeyd yanaşılıb.

Qarabağ bölgəsi və ətraf rayonların bu hala salınmasına bəlkə də indiyə qədər dünyanın heç bir yerində rast gəlinməyib. Bəli, bu, erməni vəhşiliyinin bariz ifadəsidir, düşmənin əxlaq və düşüncəsinin məntiqi nəticəsidir.

Qarabağ işğaldan azad ediləndən sonra bu torpaqlara səfər edən əcnəbi şəxslər tərəfindən isə erməni barbarlığı haqqında artıq bütün dünyada danışılır. Məsələn, Türkiyə Prezident Administrasiyasının İctimaiyyətlə Əlaqələr İdarəsinin rəhbəri Fahrettin Altun Ağdam Cümə məscidinə səfəri zamanı erməni vandalizminin nəticələri barədə yazır: "Buradakı zülmü, əziyyəti və barbarlığı gördük. Bu, bənzəri olmayan bir vəhşilikdir. Bunlara rəğmən, dünyanın, beynəlxalq təşkilatların necə ikiüzlü bir mövqe sərgilədiyini də gördük. Baxın, dünyanın mədəniyyət abidələrini qorumaq məsuliyyəti daşıyan ölkələrdən heç bir səs çıxmayıb. Ona görə də buradakı mədəniyyət abidələri məhv edilib. Bu abidələr, əslində, türklüyün və İslamın izlərini tamamən itirmək üçün ortadan qaldırılıb. Amma bunu bacarmadılar və bacara bilməyəcəklər. Çünki bu torpaqlar türklərin torpaqları, İslamın torpaqlarıdır".

Fransalı hüquqşünas Eliz Arfi isə Ağdama səfəri zamanı bildirib ki, bizim bu rayona gəlməyimizdə əsas məqsəd Avropa mətbuatında yazılanlardan başqa, buradakı vəziyyəti öz gözümüzlə görməkdir. Ağdamı bu halda görmək həqiqətən çox çətindir. Bu ərazilərdə dağıntının miqyası ürək ağrıdır, işğalçının hüquq pozuntularına yol verdiyi açıq-aşkar nəzərə çarpır, adamı dəhşətə gətirir... Şəhər təmamilə dağıdılaraq, demək olar ki, xəritədən silinib.

Düşməndən təmizlənən Ağdam rayonuna səfər zamanı jurnalistlərə açıqlamasında BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Angel Moratinos deyib: "İşğaldan azad olunmuş Azərbaycan ərazilərindəki vəziyyəti gəlib gözümüzlə gördük. Ermənilər tərəfindən bu yerlərdə olan məscidlərin, teatr və otel binalarının dağıdılması bizi çox kədərləndirdi və hər birimizdə çox ağır təəssüratlar yaratdı... Biz gələcəyi düşünürük və ümid edirik ki, Azərbaycanın gözəl və zəngin tarixi abidələri olan bu ərazilər bərpa olunacaq, bu yerlərə həyat qayıdacaq. Əminəm ki, UNESCO-dakı təcrübəli ekspertlər qrupu burada yerləşən gözəl memarlıq nümunəsi olan tarixi məscidin yenidən bərpası istiqamətində əllərindən gələni əsirgəməyəcək".

Ermənilərin bu cür əməlləri onlar üçün heç bir müqəddəs dəyərin olmadığını göstərir. Buna baxmayaraq, işğalçı çox zaman Azərbaycanı dini dözümsüzlükdə ittiham edir, həyasızcasına bizi din davası aparmaqda suçlayır. Halbuki Azərbaycan heç zaman din davası gerçəkləşdirməyib. Ölkəmizin ərazisində bütün dinlərə məxsus olan abidələr dövlət səviyyəsində qorunub, məscidlərlə yanaşı, sinaqoqlar tikilib, yeni kilsələr inşa edilib. Hətta Bakı şəhərinin mərkəzində erməni kilsəsi dövlət tərəfindən qorunan abidələr siyahısına salınıb. Ermənilər isə, əksinə, İslam mədəniyyətinin incisi olan məbədləri dağıdıb, regionda dini müharibə məsələsini qızışdırmağa və bu münaqişəni xristian-müsəlman qarşıdurması kimi təqdim etməyə cəhd göstəriblər.

Azərbaycanın qazandığı tarixi qələbədən sonra Qarabağ və Şərqi Zəngəzurun yeni inkişaf dövrü başlayıb. Prezident İlham Əliyev avqustun 26-da Abşeron rayonunda şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına mənzillərin və avtomobillərin təqdim olunması mərasimindəki çıxışında bərpa prosesinin təkcə maliyyə vəsaiti ilə həllinin kifayət etmədiyini vurğulayaraq, deyib: "Gərək bu genişmiqyaslı layihələri icra etmək üçün texniki imkanlar olsun, kadr potensialı olsun, daxili resurslar olsun. Biz bütün bu gücləri səfərbər etmişik və bu gün erməni vəhşiliyinin fəsadlarını aradan qaldırırıq. Mən demişdim, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Biz bunu edəcəyik. Necə ki, bu günə qədər verilən bütün vədlər həyatda öz əksini tapdı, bir dənə də olsun vəd yerinə yetirilməmiş qalmadı və İkinci Qarabağ müharibəsindəki parlaq qələbəmiz buna əyani sübutdur".

Dövlətimizin başçısı tərəfindən Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında fərman imzalanması və bu sənəddə Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının yaradılması düşməndən təmizlənən adları çəkilən bölgələrdə bərpa, tikinti-quruculuq işlərinin sürətlə aparılmasına əlverişli zəmin hazırlayıb. Yeri gəlmişkən, xatırladaq ki, Qarabağ iqtisadi rayonuna Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları daxil edilib. Şərqi Zəngəzur iqtisadi rayonu isə Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları əsasında qurulub.

Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonunun yaradılması ilə Azərbaycan iqtisadiyyatı artıq bir neçə dəfədən çox böyüyüb, iqtisadiyyatın regional və sektorial strukturu dəyişib, habelə Qarabağın iqtisadi dövriyyəyə qayıtması və regional kommunikasiyaların, o cümlədən, Zəngəzur dəhlizinin açılması perspektivi yeni reallıqlar üzə çıxarıb. Yuxarıda adı çəkilən fərmanda göstərildiyi kimi, Qarabağ bölgəsinin sürətli inkişafına əlverişli zəmin yaranıb.

Onu da qeyd edək ki, Qarabağ və Şərqi Zəngəzurun bərpası ölkə iqtisadiyyatının inkişafı üçün yeni imkanlar yaradacaq. Belə ki, əsasən, 2022-2025-ci illər üçün xərclərin əsas prioritetlərindən biri müharibənin nəticələrinin aradan qaldırılması, düşməndən təmizlənən ərazilərin bərpası, yenidənqurulması və ölkə iqtisadiyyatına reinteqrasiyası olacaq.

***"Xalq qəzeti"***